# ƏHMƏDOV TOFİQ RƏŞİD OĞLU - 75



Tofiq Rəşid oğlu Əhmədov 1947-ci ildə Dəvəçi (indiki Şabran) rayonunun Güləmli kəndində anadan olmuşdur. 1964-cü ildə Dəvəçi rayon orta məktəbini gümüş medalla bitirərək, M. Əzizbəyov adına Neft və Kimya institutuna daxil olmuşdur. 1969-cu ildə bu institutun geoloji-kəşfiyyat fakultəsini fərqlənmə diplomu ilə bitirmiş və təyinatla institutda saxlanılmışdır. O, institutun aspiranturasına daxil olub, 1975-ci ildə dissertasiya müdafiə etmiş, geologiya-mineralogiya elmlər namizədi alimlik dərəcəsi adı almışdır.

1973-1977-ci illərdə "Geofiziki kəşfiyyat üsulları" kafedrasında mühəndis, böyük mühəndis, baş elmi işçi vəzifələrində çalışmış və bu illər ərzində mühazirələr oxumuş, laboratoriya dərsləri aparmışdır. 1977-1978-ci illərdə Moskvada M.Torez adına Xarici Dillər institutunda fransız dili kurslarında oxumuş, 1978-1982-ci illərdə Əlcəzairdə Milli Karbohidrogenlər institutunda "Geofizika" kafedrasının professoru və kafedra müdiri vəzifələrində çalışmışdır. 1982-1983-cü illərdə yenidən M. Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunun "Geofiziki kəşfiyyat üsulları" kafedrasının baş elmi işçisi vəzifəsinə təyin edilmiş, sonrakı illərdə kafedranın dosenti və professoru vəzifələrinə seçilmişdir.

Əhmədov T.R. uzun müddət üçölçülü fəza seysmik müşahidələrinin nəzəri və praktiki məsələləri ilə məşğul olmuşdur. Dünyada ilk dəfə olaraq, o bilavasitə üçölçülü fəzada seysmik dalğaların yayılma müstəvilərinə görə bir-birlərindən ayrılmasının nəzəri əsaslarını və Abdullayev R.Ə. ilə birlikdə şaquli dərinlik kəsilişləri ilə bərabər mühiti müxtəlif bucaqlar altında kəsən maili dərinlik seysmik kəsilişlərinin qurulma metodikasını işləyib hazırlamışdır.

O, illər ərzində seysmik kəşfiyyatla dizyunktiv dislokasiyaların (DD-lərin) öyrənilməsi ilə məşğul olmuş, DD-lərin əsas kinematik və dinamik əlamətlərini sistemləşdirmiş və bura yeni əlamətlər də daxil etmişdir.

Azərbaycanın bir çox neftli-qazlı sahələrində seysmik tədqiqatlarla alınmış materialların təhlili belə qənaətə gətirir ki, pozulma zonaları üzərində və onların qonşuluğundakı hissələrdə alınan zaman kəsilişlərində əks olan dalğalarla yanaşı müəyyən tipli, digər mənşəli dalğalar da müşahidə olunur.

T.R.Əhmədov 2003-cü ildə "Seysmik kəşfiyyatla dizyunktiv dislokasiyaların öyrənilməsi" monoqrafiyasını çap etdirmişdir.

Ümumiyyətlə, elmi fəaliyyəti dövründə o, seysmik kəşfiyyat məlumatlarının emal və interpretasiyasının bu və ya digər məsələləri ilə məşğul olmuşdur. Uzun müddət kinematik emal və interpretasiya ilə məşğul olmuş və diqqəti cəlbedən nəticələr almışdır. Son 15-20 ildə seysmik məlumatların dinamik emal və interpretasiya məsələləri – birbaşa axtarış, atribut analizi, seysmik inversiya ilə məşğul olmuşdur.

2017-ci ildə əsasən gənc mütəxəssislər üçün faydalı olan "Tətbiqi seysmika" (İbrahimli M.S. ilə birlikdə) monoqrafiyasını çap etdirmişdir.

Çox sayda, müxtəlif dillərdə (azərbaycan, rus, fransız) dərslik və dərs vəsaitlərini çap etdirmişdir.

O, 130 elmi işin, o cümlədən 63 məqalə, 25 tezis, 9 dərs vəsaiti, 7 fənn proqramı, 1 metodik vəsait, 3 monoqrafiya və 1 patentin müəllifidir.

***Geofizika və geologiya İdarəsinin rəhbərliyi və əmək kollektivi, "Azərbaycanda Geofizika Yenilikləri" jurnalının redaksiya heyəti Tofiq müəllimi şanlı yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona möhkəm can sağlığı və yeni-yeni yaradıcılıq uğurları arzulayır!***